UOT 7.08
https://doi.org/10.59849/2218-4783.2026.1.240

# MÜASİR DÖVR NAXÇIVAN RƏSSAMLIQ MƏKTƏBİNİN LAYİQLİ NÜMAYƏNDƏSİ ŞAHİN RƏSULZADƏNİN MƏNZƏRƏ YARADICILIĞINDA ƏNƏNƏDƏN MÜASİRLİYƏ

# FROM TRADITION TO MODERNITY IN THE LANDSCAPE ART OF SHAHIN RASULZADEH, A WORTHY REPRESENTATIVE OF THE CONTEMPORARY NAKHCHIVAN SCHOOL OF PAINTING

**Şəmsiyyə ZALOVA***

## XÜLASƏ

Müasir dövr Naxçıvan rəssamlarından olan Şahin Rəsulzadənin yaradıcılığında Orta əsr Şərq şəhərsalma mədəniyyətinin izlərini daşıyan, memarlıq ənənələrinin orijinallığı ilə seçilən Naxçıvan abidələri xüsusi yer tutur. Rəssamın bu əsərlərində monumentallıq, dekorativlik, simvolik məna, formaya və məkana fərdi yanaşma prinsipləri onun özünəməxsus təsvir vasitələri ilə yeni məna qazanmışdır. Onun həmin rəsmlərindən aydın olur ki, Möminə xatun türbəsi, Naxçıvanqala, Gülüstan türbəsi, Qarabağlar türbə kompleksi və digər tarixi abidələr, həmçinin şəhər mədəniyyətinin formalaşdığı yeni yaşayış məkanları rəssamın yaradıcılığında əsas ilham qaynaqlarından olmuşdur. Rəssamın "Doğma Naxçıvan", "Hüseyn Cavid məqbərəsi", "İmamzadə türbə kompleksi", "Bəhruz Kəngərli etüddə" və s. kimi əsərləri onun doğma yurduna bağlılığını, tarixə ehtiramını və milli-mədəni dəyərlərə olan sonsuz sevgisini dolğun şəkildə əks etdirir.

**Açar sözlər:** *Müasir dövr, Naxçıvan, rəssam, Şahin Rəsulzadə, memarlıq, abidə.*

## ABSTRACT

In the creative work of Shahin Rasulzadeh, one of the notable artists of the contemporary Nakhchivan school of painting, architectural monuments that reflect traces of medieval Eastern urban culture and stand out for their originality hold a special place. In these works, monumentality, decorativeness, symbolic meaning and individual approaches to form and space acquire new artistic dimensions through the painter's distinctive visual language. An analysis of his works demonstrates that monuments such as the Momine Khatun Mausoleum, Nakhchivangala, the Gulustan Mausoleum, the Garabaghlar architectural complex, as well as newly formed urban living spaces, have served as major sources of inspiration for the artist. Paintings such as "Doğma Naxçıvan" (Native Nakhchivan), "Hüseyn Cavid məqbərəsi" (Hussein Javid Mausoleum), "İmamzadə türbə kompleksi" (Imamzadeh Mausoleum Complex) and "Bəhruz Kəngərli etüddə" (Bahruz Kangarli in an Étude) vividly reflect his attachment to his homeland, reverence for history and deep affection for national and cultural values.

**Keywords:** *contemporary period, Nakhchivan, artist, Shahin Rasulzadeh, architecture, monument.*

## GİRİŞ

Məlumat üçün bildirək ki, Şahin Rəsulzadə 1970-ci ildə Naxçıvan şəhərinin Şahbuz rayonunda anadan olmuşdur. 1980-1986-cı illərdə Bakı şəhərində 9 saylı incəsənət təmayüllü məktəbdə rəssamlıq sənətinin sirlərinə yiyələnməyə başlamışdır. O, 1986-1990-cı illərdə, vaxtilə rəssam Əzim Əzimzadənin təşəbbüsü ilə yaradılmış (1920) və hazırda Azərbaycan Rəssamlıq Akademiyası naz-

* AMEA Naxçıvan Bölməsi, e-mail:wems.zal@mail.ru,
ORCID: 0009-0008-7370-7257

dində fəaliyyət göstərən incəsənət kollecində təhsil almışdır [az.wikipedia.org/wiki/Əzim_Əzimzadə_adına_Azərbaycan_Dövlət_Rəssamlıq_Məktəbi].

Bildiyimiz kimi Azərbaycan təsviri sənətində plener rəssamlığının formalaşması Bəhruz Kəngərlinin mənzərə yaradıcılığı ilə sıx bağlıdır. Rəssam açıq hava şəraitində işıq və rəngin dəyişkənliyini tuta bilmiş, həmin məkanın real görüntüsünü kətan üzərinə köçürmüşdür. Məhz B.Kəngərlinin bu üslubu sonrakı dövrlərdə də bir çox rəssam tərəfindən uğurla davam etdirilmişdir.

## ŞAHİN RƏSULZADƏNİN MƏNZƏRƏ YARADICILIĞINDA BƏHRUZ KƏNGƏRLİ İZİ

Ş.Rəsulzadənin yaradıcılığında nəzərə çarpan məqamlardan biri, onun bu gün B.Kəngərlinin plener ənənəsini həvəslə və yorulmadan yaşatmasıdır. Rəssam öz rəsmləri ilə sələfinin plener ənənəsini yalnız təkrarlamır, onu yeni ifadə vasitələri ilə zənginləşdirərək inkişaf etdirir. Digər tərəfdən isə Ş.Rəsulzadə də B.Kəngərli kimi mənzərə rəsmlərinin bir çoxunda memarlıq abidələrimizi öz əsərləri  üçün bədii obraz seçmişdir. Bu isə memarlıq irsimizin müxtəlif rəssamlar tərəfindən, fərqli baxış bucaqlarından yenidən mənalandırılmasına şərait yaradır.


**Şəkil 1**

Ş.Rəsulzadənin tablolarında diqqətimizi çəkən iki detal var: İşıq-kölgə oyunları və qalın rəng yaxması. Rəssam bu üsullardan istifadə etməklə abidənin yalnız fiziki quruluşunu vermir, onun yerləşdiyi məkana emosional təsirini də ortaya çıxarır. Diqqətimizi çəkən digər bir məqam isə odur ki, rəssam çox vaxt təsvir etdiyi abidəni mərkəzdən aralıda yerləşdirir. Lakin abidə kənarda səssiz dayansa da, daşıdığı güclü emosional təsiri ilə kompozisiyanın tamamına hakim mövqeyə malik olur. Onun ətrafındakı boşluq və ya köməkçi ünsürlər isə abidənin zamanın fövqündə dayanmasını vurğulayır.

Ş.Rəsulzadənin palitrasında yer alan rənglər ən az onun üslubu qədər fərqli xüsusiyyətə malikdir. Rəssamın bu rənglərdən istifadəsi onun ifadə dilinin təsir gücünü artıran əsas vasitələrdən biridir. Bu rənglər rəssamın tablolarında yalnız dekorativ məqsəd daşımır, onun naturalist yanaşmasını, təbiəti müşahidə fəlsəfəsini açır.

Ş.Rəsulzadənin Azərbaycan təsviri sənətinin görkəmli nümayəndələrindən biri olan B.Kəngərlinin bədii irsinə dərin hörmətinin ifadəsi olan tablosu rəssamın digər əsərləri arasında xüsusilə fərqlənir. Əsərdə rəssamı İmamzadə türbə kompleksi ətrafında etüd prosesində görürük. Zənnimizcə rəssam B.Kəngərlini doğma torpaqda-İmamzadə türbəsinin əhatəsində təsvir etməklə həm sənətkarın yaradıcılıq köklərini, həm də Naxçıvan memarlığının minilliklərə dayanan tarixini vurğulamaq istəyib. Beləliklə, əsər portret olmaqdan daha çox tarixi şəxsiyyət ilə tarixi məkan arasında qurulan mənəvi dialoqu əks etdirir.

Parlaq yaşıl rəngin cəlbediciliyinin duyulduğu tabloda sərbəst boya yaxmaları, kəskin işıq-kölgə kontrastları rəssamın əsərinin danışan dilidir. Ön planda təsvir edilən rəssamın geyimində istifadə edilən isti rənglər obrazın dinamikliyini artırır, fondakı türbənin soyuq rəngləri ilə ziddiyyət yaradaraq diqqəti portretə yönəldir. Rəssamın əlində təsvir edilən fırça və palitra onun sənətə bağlılığının və doğma torpaqdan aldığı ilhamın təcəssümüdür. Onun baxışlarında müşahidəçilik, ətraf mühitə qarşı həssaslıq, doğma torpağa ehtiram hissi aydın şəkildə hiss olunur. Sol hissədə yerləşdirilən İmamzadə türbə kompleksi rəssamın fonunda yüksələrək xalqın mədəni köklərini yaşadan memarlıq nümunəsi kimi çıxış edir. Beləliklə, portretdə Bəhruz Kəngərli bir obraz kimi milli rəssamlıq sənətimizdə Naxçıvan memarlıq məktəbinin bənzərsiz nümunələrinin ilkin təsvirçisi kimi simvollaşır. Türbə isə bu məktəbin formalaşdığı məkanı vurğulayır (şəkil 1).

Rəssamın 2013-cü ildə qış vaxtı plener prosesində ərsəyə gətirdiyi "Naxçıvanqala" tablosu soyuq rənglərin ahəngi ilə yadda qalır. Tablonun əsas diqqət mərkəzində orta əsr mədəniyyəti tikililərindən olan Naxçıvanqala (Yezidabad qalası və ya Köhnəqala) tarix memarlıq abidəsi dayanır. Tikilinin uzanan divarları bütün kompozisiyanı üfüqi şəkildə dolduraraq tabloya sabitlik verir. Qalanın sağ və sol tərəfdən yüksələn bürcləri, eləcə də içəri tərəfindəki tikilinin görünən günbəzi əsərin simmetrik təsirini daha da gücləndirir. Tarixi tikili üzərində dalğanan Azərbaycan bayrağı isə kompozisiya daxilində hərəkət yaradan yeganə detaldır.



**Şəkil 2.**



**Şəkil 3.**

Tablonun sol küncündə təsvir olunan, Nuhun məzarı üzərində yüksəldilən türbə kompozisiyanın məkan genişliyini artırır. Fikrimizcə, hər iki abidənin eyni lövhədə əks etdirilməsi ümumi məkanın tarixiliyinə işarə edir (şəkil 2).

Ş.Rəsulzadənin Naxçıvan şəhərində yerləşən, ibadətgah və memarlıq abidəsi olan Kazım Qarabəkir Paşa Məscidini təsvir etdiyi tablosu dini-memarlıq irsini harmonik şəkildə birləşdirən plener üslubunun nümunəsidir.

Mövzudan kənara çıxaraq qeyd edək ki, məscid 1918-1919-cu illərdə Naxçıvanın erməni təcavüzündən xilas edilməsi üçün böyük şücaət və mərdlik göstərmiş Kazım Qarabəkir paşanın şərəfinə Türkiyə Cümhuriyyətinin Diyanət İşləri Vəqfinin dəstəyi ilə inşa edilmişdir [az.wikipedia.org /wiki/Kazım_Qarabəkir_Paşa_məscidi].

Kompozisiyanın ağırlığı yaşıl yarpaqlı ağaclar arxasından görünən məscidin yerləşdirildiyi sağ küncə düşür. Məscidin şaquli xətt üzrə qurulmuş hər iki minarəsi tabloya dinamika və simvolik yüksəklik hissi verir. Bu həmçinin tikilinin dini mahiyyətini ön plana çıxarır. Fonda görünən mavi siluetli İlanlı dağ tablonun arxa planını zənginləşdirməyə xidmət edir (şəkil 3).

Qeyd olunduğu kimi, Ş.Rəsulzadə mənzərə yaradıcılığında plener rəssamlığına üstünlük verir. O, açıq havanın dəyişkən işıq-kölgə oyunlarını, təbii rənglərini əsərlərində olduğu kimi təsvir edir. Məhz bu yanaşma rəssamın əsərlərinin ərsəyə gəldiyi məkanın atmosferinin həmin tablolarda inandırıcı şəkildə öz əksini tapmasına imkan yaradır. Rəssamın bu əsərlərindən biri Naxçıvanın iki mühüm memarlıq tikilisi olan Nuhun türbəsi və Heydər Məscidinin vahid kompozisiyada təsvir olunduğu "Zamanın qovşağında" adlı tablosudur.

Naxçıvanqala Tarix-Memarlıq Muzey Kompleksinin yaxınlığında yüksələn bu iki abidə yerləşdiyi məkanın memarlıq əlamətlərinə xas olan əzəməti nümayiş etdirirlər. Müasir dövr Naxçıvan memarlıq sənətinin bənzərsiz nümunələrindən olan Heydər məscidi yüzilliklər boyu formalaşmış olan bu məktəbin ənənələrinin davamlılığını özündə əks etdirir. Qədim memarlıq tikilisi olan Nuhun türbəsi isə əsrlərin sınağından keçmiş memarlıq nümunəsi kimi çıxış edir. Rəssam bu iki fərqli dövrün abidəsini eyni kompozisiya daxilində yerləşdirməklə memarlıq sənətimizdəki əsrlərarası əlaqəyə, mədəni ardıcıllığa işarə etmiş olur (şəkil 4).

Culfa rayon Xanağa kəndi yaxınlığında yerləşən, orta əsrlərə aid memarlıq abidəsi olan Əlincəçay xanəgahı (yerli əhali arasında Nəiminin türbəsi də adlanır) da rəssamın diqqətindən qaçmayıb. Uca, sərt qayalıq üzərində yerləşən Əlincə qalanın silueti önündə təsvir edilən bu kompleks zərif memarlıq nümunəsi kimi təqdim edilib. Rəssam biri digərini tamamlayan tikililəri eyni lövhədə təsvir etməklə tarixi və fəlsəfi paralellik yaradıb. Qeyd edək ki, orta əsr qaynaqlarında Fəzlullah Nəiminin Əlincəqala yaxınlığında edam edilməsi haqqında məlumat vardır. Bəzi tədqiqatçıların fikrinə və xalq arasında yayılan rəvayətə görə o, Əlincəçay xanəgahında dəfn olunmuşdur. Bu məsələni aydınlaşdırmaq üçün H.F.Səfərli Əlincəçay xanəgahındakı kitabələri və tarixi mənbələri yenidən araşdırmışdır. Əlincəçay xanəgahı kompleksindəki kitabələrin oxunması nəticəsində Fəzlullah Nəimi ilə bağlı heç bir məlumat əldə edilməmişdir [Baxşəliyev & Quliyeva, 2017, s. 178].

Rəsmə ilk baxdığımız zaman qala üzərindəki parlaq oxra rəngin dominantlığı diqqətimizi çəkir. Rəssamın fırça hərəkətləri yenə də sərbəst, lakin bir o qədər nəzarətlidir. Mistik ruhlu, qəhrəmanlıq simvolu olan bu əsər həm rəng həlli baxımından, həm də tarixilik baxımından olduqca yaddaqalandır (şəkil 5).



**Şəkil 4**



**Şəkil 5**

Rəssamın digər bir əsərində Naxçıvanqalanı və İmamzadə türbə kompleksini eyni kompozisiya daxilində görürük. Rəssam bu dəfə kompozisiyanı qala divarlarını ön plana çıxaracaq şəkildə qurmuşdur. İmamzadə türbə kompleksi isə yardımçı detal kimi görünür. Rəssamın fərdi üslubu bu əsərində iki xətt üzrə özünü göstərir: işığın düşmə istiqaməti və qalın boya qatları. Belə ki, rəssam yenə də yaradıcılığı üçün səciyyəvi olan işıqlandırmadan və rəng həllindən istifadə edərək əsərin isti yay günündə, plenerdə ərsəyə gəldiyini tamaşaçıya çatdıra bilmişdir. Günəşin sərt işığı qala divarlarının səthində parlaq ləkələr əmələ gətirərək onun həcmli görünməsinə və quruluşunun daha aydın qavranılmasına imkan yaradır. Uzaqdan görünən bozumtul dağlar və yaşıl yarpaqlı ağaclar Naxçıvan iqlimini olduğu kimi əks etdirir. Kompozisiya boyunca uzanan yol isə əsərə hərəkət bəxş edir (şəkil 6).



**Şəkil 6**



**Şəkil 7**

Rəssamın yaradıcılıq prinsiplərinə uyğun daha bir əsəri "Hüseyn Cavid məqbərəsi" adlanır. Əsər daha çox kolorit üzərində qurulan maraqlı yanaşma tərzini özündə təcəssüm etdirir. Tablonun mərkəzində Naxçıvan memarlıq mədəniyyətinin mühüm simvollarından olan Hüseyn Cavid məqbərəsinin hündür, yumşaq konturlu görünüşü təqdim edilib. Sönük pastel tonlarının üstünlük etdiyi əsər səhər vaxtının dumanlı atmosferini dolğun şəkildə özündə əks etdirir və tablonun qış vaxtı çəkildiyi fikrini tamaşaçıya aşılayır. Ön planda yer alan tünd yaşıl ağaclar məqbərəyə doğru istiqamətləndirici detallardır. Əsərin ən diqqət çəkən cəhətlərindən biri rəssamın yenə də impasto texnikasından istifadə edərək sərbəst fırça vuruşlarını sərgiləməsidir (şəkil 7).

## NƏTİCƏ

Beləliklə, Ş.Rəsulzadənin təhlilə cəlb olunan və adları sadalanmayan bir çox əsəri Bəhruz Kəngərlidən başlanan plener ənənəsinin çağdaş mərhələdə davam etdirilməsi və yeni üslub xüsusiyyətləri ilə zənginləşməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Rəssamın bu lövhələri yalnız Naxçıvan abidələrinin deyil, ümumilikdə Azərbaycan memarlıq məktəbinin poetik ruhunu ifadə edən qiymətli əsərlərdəndir.

## ƏDƏBİYYAT

Baxşəliyev, V. & Quliyeva, F. (2017). *Naxçıvanın tarixi abidələri*. Nurlan.

az.wikipedia.org/wiki/Kazım_Qarabəkir_Paşa_məscidi

az.wikipedia.org/wiki/Əzim_Əzimzadə_adına_Azərbaycan_Dövlət_Rəssamlıq_Məktəbi

https://serqqapisi.az/butun-xeberler/ressam-sahin-resulzadenin-derin-teessurat-adli-sergisi-acilib

*(AMEA-nın müxbir üzvü, professor Ərtegin Salamzadə tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 11.02.2026**
**Son variant 03.03.2026**